

POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

5 noyabr 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 42 (3805)

Andına sadiq Lider



Tarixi Zəfər milli iradənin və siyasi qətiyyətin təntənəsi oldu

Azərbaycanın əldə etdiyi tarixi Zəfər, bərpaolunan tam suverenliyi və regionda yaratdığı yeni geosiyasi reallıqlar dəqiq hesablanmış strateji xəttin və liderin xalqına verdiyi sözə sadiqliyinin parlaq təzahürüdür. 23 il öncə - 2003-cü il oktyabrın 31-də Bakıda keçirilən təntənəli andiçmə mərasimində Prezident İlham Əliyev Konstitusiyaya və müqəddəs Qurani-Kərimə əl basaraq Azərbaycanın gələcək taleyini dəyişəcək tarixi missiyasının startını verdi. Həmin gün dövlət başçısı gələcək qələbələrin fəlsəfəsini bu sözlərlə bəyan etdi: "Biz hamımız birləşərək və bir nöqtəyə vuraraq Azərbaycanı zəngin, qüdrətli dövlətə çevirəcəyik. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram".

Ölkəmizin ötən 23 illik zəngin salnaməsi göstərdi ki, 2003-cü ildə Prezident İlham Əliyev tərəfindən səslənən hər bir ifadə, sadəcə, siyasi bəyanat deyil, mərhələ-mərhələ gerçəkləşən strateji fəaliyyət proqramı oldu. Bütün bu illər ərzində ölkə rəhbəri beynəlxalq kürsülərdən hər zaman bəyan edirdi ki, torpaqlarımızın işğal altında qalması ilə heç vaxt barışılmayacaq.

İşğal illərində aparılan gərgin diplomatik mübarizə nəticəsində bir çox beynəlxalq platformalarda Qarabağın Azərbaycanın tarixi və hüquqi ərazisi olmasını təsdiqləyən fundamental sənədlər qəbul etdirildi. Ancaq BMT Təhlükəsizlik Şurasının qətnamələrinin timsalında beynəlxalq qərarların kağız üzərində qalması, ikili standartlar, münaqişənin həllindən məsul olan ATƏT-in Minsk qrupunun məsələni sonsuzadək dondurmaq cəhdləri Azərbaycanın səbrini tükəndirdi.

Ermənistanın növbəti hərbi təxribatından sonra - 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsi Azərbaycan dövlətinin 17 illik hazırlıq proqramının,hərbi qüdrətinin və milli birliyinin nəticəsi olaraq Qələbə ilə yekunlaşdı. Şuşa Zəfəri ilə başa çatan müharibə Ermənistanın kapitulyasiyası ilə nəticələndi. 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri isə separatçılığın kökünü kəsdi və ölkənin bütün ərazisində dövlət suverenliyini tam bərpa etdi. 2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan bayrağını ucaldan Prezident İlham Əliyevin sözləri 20 illik fəliyyətin ən uca zirvəsi idi: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi".

Bu gün Azərbaycan təkcə öz ərazi bütövlüyünü bərpa etmiş qalib dövlət deyil, eyni zamanda regionun geosiyasi simasını müəyyən edən qlobal aktordur. Azərbaycan xalqı öz Liderinin ətrafında sıx birləşərək gələcəyə daha böyük inam və qürurla addımlayır.

Prezident futbol matçını izləyib

Dövlət başçısı qaliblərə medalları təqdim edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Bakı Kristal Zalında "FIFA U-15 World Cup and Festival"ın final matçını izləyib. Final görüşündə Çexiya və İspaniya komandaları üz-üzə gəliblər. Rəqibini 3:0 hesabı ilə məğlub edən İspaniya millisi FIFA U-15 ilk dünya çempionatı və festivalının qalibi olub.

Dövlətimizin başçısı qaliblərin mükafatlandırılması mərasimində iştirak edib.

Prezident İlham Əliyev səfirləri qəbul edib

Əməkdaşlıq perspektivləri müzakirə olunub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Keniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Cona Mayna Mvangini və Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Siphandon Oybuabuddini qəbul edib.

Səfirlər etimadnamələrini dövlətimizin başçısına təqdim ediblər.

Dövlətimizin başçısı səfirlərə diplomatik fəaliyyətlərində uğurlar arzulayıb.

Görüşlərdə Azərbaycan ilə Keniya və Laos arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Prezident hər iki ölkə ilə münasibətlərin inkişaf etdirilməsinin və qarşılıqlı əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Birinci vitse-prezident mədəniyyət tədbirlərində

İncəsənət festivalı çərçivəsində tamaşalar nümayiş olunub

Noyabrın 1-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Bakı Beynəlxalq İncəsənət Festivalı (BIAF-2026) çərçivəsində "Zikra: xatirələr gecəsi" tamaşası nümayiş olunub.

Birinci vitse-prezidenti Mehriban Əliyeva və ailə üzvləri tamaşaya baxıblar.

Birinci vitse-prezident "Qağayı" tamaşasının təqdimatında da iştirak edib. Rusiyanın Sankt-Peterburq şəhərində fəaliyyət göstərən Akademik "Malıy" Dram Teatrı – Avropa Teatrı oktyabrın 29-da Anton Pavloviç Çexovun "Qağayı" pyesi əsasında hazırlanan eyniadlı tamaşasını təqdim edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva, qızı Leyla Əliyeva və Alyona Əliyeva tamaşaya baxıblar.

Narkotiklə mübarizə ümumi vəzifədir

İctimai dəstək niyə vacibdir?

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ağır cinayətlərin törədilməsinə şərait yaratdığına görə ona bütün dünyada ciddi təhlükəsizlik məsələsi kimi baxılır. Xüsusilə narkoticarətdən əldə olunan külli miqdarda vəsaitin transmilli mütəşəkkil cinayətkar şəbəkələrin maliyyələşdirilməsinə yönəldilməsi, qanunsuz dövriyyə kanallarının getdikcə mürəkkəb üsullarla təşkil olunması ölkələrin aidiyyəti qurumlarından daha peşəkar və bir o qədər də qətiyyətli mübarizə tələb edir.

(Ardı 2-ci səhifədə)

Genişmiqyaslı əməliyyat


Kiberdələduzluq şəbəkəsinin təşkilatçıları saxlanılaraq ölkəyə gətirilib

Hüquq-mühafizə orqanlarının əməkdaşları adından Azərbaycan vətəndaşlarını aldadaraq pul vəsaitlərini ələ keçirən kiberdələduzluq şəbəkəsinin beynəlxalq axtarışda olan təşkilatçıları saxlanılaraq ölkəyə gətirilib.

Kibercinayətkarlığın dünya iqtisadiyyatına vurduğu illik zərər son beş ildə 75 faiz artaraq 6 trilyon dollardan 10,5 trilyon dollara yüksəlib. Xaraktercə qlobal miqyasda geniş yayılan kibercinayətkarlığın yaratdığı təhlükələr, heç şübhəsiz ki, Azərbaycandan da yan keçmir.


(Ardı 2-ci səhifədə)

Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək




2

Tariximizə qələbə yazan qəhrəmanlar



3

Tarixin ən böyük kiberoğurluğu



4

Şəhidlərin xatirəsinə həsr olunan cüdo birinciliyi



4

Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

Gəncədə qəbul və sıra baxışı olacaq

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov noyabrın 13-də Gəncə şəhərində növbəti vətəndaş qəbulu və polis orqanları, o cümlədən daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirəcək.

Gəncə Şəhər Baş Polis İdarəsinin inzibati binasında keçiriləcək qəbulda Gəncə, Naftalan, Samux, Göygöl, Goranboy, Daşkəsən, Xocalı, Kəlbəcər şəhər və rayonlarının sakinləri iştirak edə bilərlər.

Vətəndaşlar nazirliyin səlahiyyətlərinə aid məsələlərlə bağlı noyabrın 12-dək yaşadıqları ərazinin polis orqanına, habelə nazirliyin "E-Polis" mobil tətbiqi, e-xidmet.mia.gov.az elektron xidmət portalı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

Polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan namizədlərin sıra baxışı noyabrın 13-də 08:00-da DİN Daxili Qoşunların Gəncə şəhərində yerləşən hərbi hissəsində keçiriləcək.

Qeyd edək ki, qəbula və sıra baxışına gələnlər şəxsiyyət vəsiqələrini təqdim etməlidirlər.

Narkotiklə mübarizə ümumi vəzifədir

İctimai dəstək niyə vacibdir?

(Əvvəli 1-ci səhifədə)

Azərbaycana gəlincə, narkotiklərə qarşı aparılan mübarizənin son illərdə daha geniş miqyas alması, qanunsuz dövriyyə kanallarının müəyyənləşdirilərək bağlanması, narkotik vasitələrin satışını və daşınmasını təşkil edən şəxslərin ifşa olunması istiqamətində keçirilən əməliyyatların ardıcıllığı göstərir ki, polis bu sahədə zəruri mübarizə tədbirlərini qətiyyətlə davam etdirir. Daxili İşlər Nazirliyinin rəsmi media səhifələri vasitəsilə gündəlik dərc olunan, yayımlanan məlumatlarda müxtəlif növ narkotik vasitələrin qanunsuz dövriyyədən çıxarılması və həmin əməllərdə iştirak edən şəxslərin məsuliyyətə cəlb olunması ilə bağlı ictimaiyyətə çatdırılan faktlar bu bəlaya qarşı polisin barışmaz mövqeyini əməli olaraq hər gün təsdiqləyir. Nazirliyin son Kollegiya iclasında açıqlanan statistik göstəricilər də həyata keçirilən tədbirlərin miqyasını konkret rəqəmlərlə ifadə etməklə yanaşı, narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin hansı səviyyədə davam etdirildiyini ortaya qoydu. Belə ki, hesabat dövründə qanunsuz dövriyyədən 6 ton 443 kiloqram narkotik vasitənin çıxarılması, bu göstəricinin ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 ton 780 kiloqram artıq olması görülən işlərin həcmi barədə aydın təsəvvür yaradır. Hər qramı bir cinayət, bir insan ömrü mənasına gələn bu qədər narkotik vasitənin qanunsuz dövriyyədən çıxarılmasının həm insan sağlamlığının qorunması, həm də narkotik asılılığının doğura biləcəyi sosial faciələrin və təbii ki, kriminal xarakterli hadisələrin qarşısının alınması baxımından əhəmiyyətini anlamaq çətin olmaz. Nəzərə alsaq ki, narkotik asılılığı insanın sağlamlığı ilə yanaşı, onun ailə münasibətlərinə, əmək fəaliyyətinə və cəmiyyətdəki mövqeyinə də ağır təsir göstərir, qanunsuz satış şəbəkələrinin zərərsizləşdirilməsinin ictimai təhlükəsizlik baxımından nə qədər zəruri olduğu daha aydın görünər.

Bu məsələdə ölkədə aparılan geniş miqyaslı maarifləndirmə işini xüsusilə qeyd etməliyik. Narkotik bəlasının qarşısının alınmasında profilaktik tədbirlərin davamlılığı, xüsusilə yeniyetmə və gənclərin narkotik vasitələrin fəsadları barədə vaxtında məlumatlandırılmasını polis diqqət mərkəzində saxlayır. Bütün tədris ili ərzində ümumtəhsil məktəblərində, ali təhsil müəssisələrində və müxtəlif əmək kollektivlərində təşkil olunan görüşlərin məqsədi də budur.

Ancaq narkotik elə bəşəri bəladır ki, onunla mübarizədə cəmiyyətin də üzərinə düşən məsuliyyət var və bunun ciddi qəbul olunması vacib şərtdir. Mübarizə hamının mübarizəsidir. Yeniyetmənin hansı mühitdə böyüməsi, kimlərlə ünsiyyət qurması, asudə vaxtını necə keçirməsi və qarşılaşdığı təhlükələrə münasibəti ilk növbədə



ailədə, daha sonra təhsil aldığı mühitdə formalaşır. Deməli, valideynlərin övladlarının davranışına diqqətlə yanaşması, müəllimlərin şagirdlərdə müşahidə etdikləri dəyişikliklərə həssas münasibət göstərməsi polisin gənclərin sağlam həyat tərzinə təşviq etmək istiqamətində apardığı maarifləndirmə işini tamamlayar və beləcə, istənilən nəticə əldə edilər. Məsələn, gərək gənclər də bu təhlükə ilə ilk qarşılaşdıqları anda hansı seçimə üstünlük verəcəyini ailədən aldığı tərbiyənin, məktəbdə qazandığı biliklərin və yaşadığı sosial mühitin təsiri ilə düzgün müəyyənləşdirməyi bacarsınlar. Belə görünür ki, narkotiklərlə mübarizənin taleyi məhz bu doğru yolu seçməkdən asılıdır.

Respublika xəbərləri

Qəza riski yüksək yollar müəyyənləşdiriləcək

Azərbaycanda yol-nəqliyyat hadisələri üzrə risk xəritəsinin yaradılması nəzərdə tutulur. Layihə çərçivəsində qəzaların daha çox baş verdiyi ərazilərin müəyyənləşdirilməsi, məlumatların xəritələşdirilməsi və risklərin yaranma səbəblərinin təhlili planlaşdırılır. Əldə olunan məlumatlar əsasında aidiyyəti dövlət qurumlar tərəfindən birgə qabaqlayıcı tədbirlər görüləcək.

Nağdsız ödənişlər artıb

Son bir ildə Azərbaycanda milli ödəniş sisteminin dövriyyəsi 46 faiz artaraq 862 milyard manat olub. Sentyabr ayının nəticələrinə əsasən, ölkədaxili nağdsız əməliyyatların həcmi 80 milyard manata çataraq 11,7 faiz artıb. Kart vasitəsilə ölkədaxili əməliyyatlarda nağdsız dövriyyənin xüsusi çəkisi 69 faiz təşkil edib.

Qubadlıda ilk su elektrik stansiyası tikilir

Qubadlı rayonunda Bərgüşad çayı üzərində 5,3 meqavat gücündə "Eyvazlı" Su Elektrik Stansiyası tikilir. Stansiyanın tikinti-quraşdırma işlərinin yaxın vaxtlarda yekunlaşdırılması nəzərdə tutulur. İstismara verildikdən sonra burada ildə 15,6 milyon kilovat-saat elektrik enerjisinin istehsalı, 3,5 milyon kubmetr təbii qaza qənaət edilməsi və atmosferə atılan 6 400 ton karbon qazı emissiyasının qarşısının alınması planlaşdırılır.

Sumqayıtda mikromobillik zolaqları

Sumqayıt şəhər Bulvarında mikromobillik zolaqları təşkil edilib. Yeni zolaqların yaradılmasında məqsəd mikromobillik vasitələrinin hərəkətini tənzimləmək və daha təhlükəsiz mühit formalaşdırmaqdır. Bundan əvvəl ərazidə velosipedlər üçün parklanma məntəqələri yaradılıb və kirayə velosipedlər istifadəyə verilib.

Ərazilər minalardan təmizlənir

Oktyabr ayı ərzində işğaldan azad edilmiş ərazilərdə 4 898,3 hektar sahə minalardan təmizlənib. Həmin müddətdə 180 tank əleyhinə mina, 799 piyada əleyhinə mina və 3 070 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Minatəmizləmə əməliyyatları, həmçinin Qazax rayonunun Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı kəndlərində həyata keçirilib.

Ağdam və Xocavəndə növbəti köç

"Böyük Qayıdış" Proqramı çərçivəsində Ağdam şəhərinə 70 ailə – 238 nəfər, Xocavənd rayonunun Quzeyxırman kəndinə isə 8 ailə – 34 nəfər köçürülüb. Qayıdan sakinlər əsasən yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Genişmiqyaslı əməliyyat

Kiberdələduzluq şəbəkəsinin təşkilatçıları saxlanılaraq ölkəyə gətirilib



(Əvvəli 1-ci səhifədə)

Kibercinayətkarlığın transmilli xarakter alması, cinayətkar şəbəkələrin müxtəlif ölkələrdən idarə olunması və qanunsuz maliyyə əməliyyatlarında müasir texnoloji imkanlardan istifadə edilməsi bu sahədə mübarizənin əhəmiyyətini daha da artırır. Belə cinayətlərin qarşısının alınması sadəcə ayrı-ayrı hüquqpozma hallarının aşkarlanmasını deyil, həm də onların təşkilatçılarının, xarici əlaqələrinin və maliyyə mexanizmlərinin müəyyənləşdirilməsini zəruri edir. KMBİ əməliyyatı Ukrayna polisi ilə birgə keçirib.

Bu istiqamətdə Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin Ukrayna polisi ilə birgə həmin ölkənin ərazisində keçirdiyi növbəti əməliyyat da kiberdələduzluğun beynəlxalq miqyasda təşkil olunduğunu və Azərbaycan vətəndaşlarının xaricdən idarə edilən mütəşəkkil şəbəkələrin hədəfinə çevrildiyini ortaya qoyub.

Keçirilən tədbir nəticəsində Azərbaycan vətəndaşlarının pul vəsaitlərini ələ keçirmək məqsədilə Ukraynadan idarə olunan mütəşəkkil kiberdələduzluq şəbəkəsinin fəaliyyəti ifşa edilib.

Araşdırmalarla müəyyən olunub ki, şəbəkənin fəaliyyəti Ukraynanın bir neçə şəhərində müxtəlif xidmət ofisləri adı altında yaradılmış "Call Center"lər vasitəsilə təşkil olunub. Cinayətkar şəbəkəyə yeni üzvlərin cəlb olunması məqsədilə "Telegram" platformasında informasiya texnologiyaları və müştəri xidmətləri sahəsində yüksək əməkhaqqı vəd edən iş elanları yerləşdirilib. Nəticədə bəzi ölkə vətəndaşları Ukraynada qanunsuz fəaliyyət göstərən həmin mərkəzlərə cəlb ediliblər.

"Call Center"lərdə şəbəkə üzvləri xüsusi hazırlanmış danışıq ssenariləri əsasında Azərbaycan vətəndaşlarına zəng edərək müxtəlif psixoloji manipulyasiya üsullarından istifadə ediblər. Onlar özlərini hüquq-mühafizə orqanlarının, mobil operatorların, bankların və investisiya şirkətlərinin əməkdaşları kimi təqdim edərək vətəndaşlara hesablarında şübhəli əməliyyatların aparıldığı, pullarının təhlükədə olduğu, bank kartlarının bloklanacağı və ya adlarından qanunsuz maliyyə əməliyyatlarının həyata keçirildiyi barədə yalan məlumatlar veriblər. Digər hallarda isə vətəndaşların kiberdələduzluq əməllərinin qurbanına çevrilməsi üçün yüksək gəlir vəd edən saxta investisiya təkliflərinin adından istifadə olunub.

Şəbəkə üzvləri yaratdıqları qorxu və təşviş vəziyyətindən, yaxud asan qazanc əldə etmək istəyindən istifadə edərək vətəndaşları tələsik qərar verməyə, vəsaitlərini guya təhlükəsiz hesablara köçürməyə, bank kartı məlumatlarını, SMS təsdiq kodlarını və digər məxfi şifrələrini açıqlamağa sövq ediblər.

Ukrayna Daxili İşlər Nazirliyi ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində keçirilən tədbirlərlə Kiyev şəhərində fəaliyyət göstərən qanunsuz "Call Center"lərdə işləyən 11 nəfər, o cümlədən şəbəkənin əsas təşkilatçıları kimi beynəlxalq axtarışa verilmiş Nəriman İskəndərov, Elsun Əliyev, Elşad Musayev və Elşən Şükürov saxlanılaraq Azərbaycana gətiriliblər.

Məlum olub ki, Ruslan Zakirov, Yasəf Bayramov, Elsevər Məmmədov, Dmitri Duşin və Ruslan Matveyev xaricdəki şəbəkə üzvləri ilə "Telegram" vasitəsilə əlaqə saxlayaraq kiberdələduzluq yolu ilə əldə edilən vəsaitlərin leqallaşdırılmasında iştirak ediblər. Onlar talanmış pulları istifadələrində olan bank kartı hesablarında cəmləyərək razılaşdırılmış faiz məbləğini götürdükdən sonra qalan hissəni kriptovalyutaya çevirərək xaricə göndəriblər.

Dəstə başçıları həbs edilib. Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Dəstə başçıları barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Saxlanılan digər şəxslərlə bağlı isə istintaq araşdırmaları aparılır.

Təbiətə münasibət mədəniyyətin göstəricisidir

Ətraf mühiti qorumaq həm də vətəndaşlıq borcudur

Ətraf mühitin təmiz saxlanılmasında hər bir insanın məsuliyyətli davranışı mühüm rol oynayır. Küçəyə atılan tullantı, parkda qoyulan plastik qab, yol kənarına boşaldılan məişət qalıqları ətrafı çirkləndirməklə yanaşı, başqalarının rahatlığına və təmizlik işçilərinin əməyinə laqeyd münasibəti göstərir. Yaşadığımız mühitə qayğı gündəlik həyatda atdığımız sadə addımlardan başlayır.

Ətraf mühitin qorunması həm də konstitusion borcdur. Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsində bu vəzifənin hər bir şəxsə aid olduğu təsbit edilib. Deməli, təmizliyin qorunması yalnız aidiyyəti qurumların fəaliyyəti ilə məhdudlaşmır, hər kəsdən məsuliyyətli davranış tələb edir. Ətraf mühitin çirkləndirilməsi hüquqi məsuliyyət də yaradır. İnzibati Xətalar Məcəlləsində məişət tullantılarının tutumlardan - urnalar və zibil qablarından kənar yerlərə atılmasına görə cərimə nəzərdə tutulur. Bu əmələ görə fiziki şəxslər 300 manat məbləğində cərimə edilir. Buna baxmayaraq, bəzi şəxslərin tullantıları küçələrə, parklara, yol kənarlarına, hətta hərəkətdə olan avtomobillərin pəncərəsindən çölə atması hallarına hələ də rast gəlinir.

Çirklənmiş ərazilərin təmizlənməsi üçün aidiyyəti qurumlar tərəfindən işlər görülür. Polis əməkdaşları da səlahiyyətləri çərçivəsində ictimai qaydanın qorunması, hüquqpozmaların qarşısının alınması və vətəndaşların maarifləndirilməsi istiqamətində tədbirlər həyata keçirirlər. Vətəndaşlarla aparılan söhbətlər, ekoloji tələblərin izahı və məsuliyyət barədə xəbərdarlıqlar ətraf mühitə qayğıkeş münasibətin formalaşmasına xidmət edir.

Atmosfer havasının qorunması da ekoloji təhlükəsizliyin mühüm istiqamətlərindəndir. Yol Polisi tərəfindən aidiyyəti qurumlarla birgə keçirilən "Təmiz hava" aylığı çərçivəsində nəqliyyat vasitələrinin ətraf mühitə təsirinin azaldılmasına yönəlmiş nəzarət və maarifləndirmə tədbirləri həyata keçirilir. Sürücülərin diqqətinə nəqliyyat vasitələrinin texniki sazlığının və ekoloji tələblərə əməl olunmasının vacibliyi çatdırılır.

Belə tədbirlərin səmərəsi vətəndaşların məsuliyyətli münasibətindən də asılıdır. Qaydalara yalnız nəzarət zamanı əməl etmək davamlı nəticə vermir. Ətraf mühiti qorumaq insanın gündəlik davranışına və həyat tərzinə çevrilməlidir. Ətraf mühitin qorunmasında hüquqi məsuliyyətin və nəzarət tədbirlərinin öz yeri var. Bununla yanaşı, təmizliyə riayət etmək insanın şəxsi məsuliyyətindən və ekoloji mədəniyyətindən irəli gəlməlidir. Uşaqlara təbiətə qayğını öyrətməyin təsirli yollarından biri də böyüklərin öz davranışları ilə nümunə göstərməsidir. Yaşadığımız küçələr, istifadə etdiyimiz yollar, dincəldiyimiz parklar hamımızın ortaq mühitidir. Onları təmiz saxlamaq başqalarının sağlamlığına, rahatlığına və əməyinə hörmətin ifadəsidir. Təbiətə münasibət mədəniyyətin göstəricisi kimi məhz bu gündəlik davranışlarda özünü göstərir.

F.Məmmədova

Tariximizə qələbə yazan qəhrəmanlar

Üç fərqli döyüş yolu, bir müqəddəs amal

Şuşanın azadlığı uğrunda döyüşən hər bir əsgər və zabitin taleyində 8 Noyabrın öz yeri var. O günə gedən yol ağır döyüşlərdən, çətin sınaqlardan, güllə yağışı altında yalın əllə sərt qayalara çıxmaqdan, hətta şəhid silahdaşını vuruşa-vuruşa kürəyində daşımaq kimi böyük fədakarlıqlardan keçib. Şuşaya doğru irəliləyən Azərbaycan hərbçiləri qarşıda onları nələrin gözlədiyini bilsələr də, illərlə həsrətində olduğumuz torpaqların azadlığı naminə bütün bu çətinliklərə sinə gərdilər. Bu gün həmin döyüşlərin iştirakçıları ilə söhbət edəndə Zəfərin hansı şəraitdə, neçə qəhrəmanlıqlar hesabına və hansı qəhrəmanlar sayəsində qazanıldığını daha aydın təsəvvür edirsən.

Bu Vətən fədailərinin hər birinin danışmağa öz döyüş yolu, xatırlamağa silahdaşları, qürur duymağa qəhrəmanlıq səhifələri var. Kimi azad edilmiş şəhərə ilk daxil olduğu anı, kimi döyüş meydanında verdiyi ağır qərarı, kimi də illər sonra həmin torpaqlara qayıdarkən keçirdiyi hissləri unuda bilmir. Bu xatirələri birləşdirən isə Vətənə sonsuz sədaqət, torpaqlarımızın azadlığı uğrunda göstərilən fədakarlıq və Azərbaycan əsgərinin sarsılmaz qələbə əzmidir.

> **“Şuşanın azad edilməsi Daxili Qoşunların xüsusi təyinatlıları üçün əsas tapşırıqlardan idi.”**

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının “N” saylı hərbi hissəsinin komandiri, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Nicad Bədəlov da həmin tarixi günlərin canlı şahidlərindəndir.

Vətən müharibəsi zamanı Daxili Qoşunların xüsusi təyinatlılarının qrup komandiri olan Nicad Bədəlov Kəlbəcərdən Cəbrayıla, Füzulidən Şuşayadək ağır döyüş yolu keçib. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müvafiq Sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Onunla söhbətimizdə döyüş yolunun ayrı-ayrı mərhələlərini xatırlayırıq. Hərbi əməliyyatların gedişindən danışarkən xüsusilə vurğulayır ki, düşmənin güclü müdafiə mövqeləri qurduğu ərazilərdə hər bir yüksəkliyin azad edilməsi sonrakı döyüş tapşırıqlarının uğurla yerinə yetirilməsi baxımından böyük əhəmiyyət daşıyırdı: “İlk döyüşümüz Kəlbəcər rayonu istiqamətində başladı. Burada qarşımıza qoyulan tapşırıqları yerinə yetirdikdən sonra növbəti döyüş əmri aldıq. Bu dəfə Cəbrayıl istiqamətinə hərəkət etdik. Qarşımızda rayonun işğaldan azad edilməsi və düşmənin silahlı birləşmələrinin məhv edilməsi vəzifəsi dayanırdı. Cəbrayıl azad olunduqdan sonra döyüş yolumuz Füzuli istiqamətində davam etdi”.

Füzuli istiqamətində Daxili Qoşunların xüsusi təyinatlılarının qarşısına qoyulan tapşırıqlardan biri növbəti yüksəkliyin düşməndən azad edilməsi idi. Strateji mövqeyinə görə seçilən bu yüksəklikdən Xocalı, Xocavənd, Şuşa və Hadrut istiqamətlərindəki yollara nəzarət etmək mümkün idi. Buna görə də düşmən nəyin bahasına olursa - olsun həmin mövqedən çıxarılmalıydı.

Ağır döyüşlər nəticəsində Daxili Qoşunların xüsusi təyinatlıları qarşılarına qoyulan tapşırığı yerinə yetirərək yüksəkliyi ələ keçirir və növbəti əməliyyatlar üçün əlverişli mövqelər əldə olunur.

Füzulinin azad edilməsindən sonra isə qarşıda daha ağır döyüşlər dayanırdı. Şuşaya yol açılmışdı... Qarabağın tacı sayılan Şuşaya.

“Şuşa Qarabağın ürəyidir, Qarabağın tacıdır. Bu şəhərin azad edilməsi bizim üçün, Daxili Qoşunların xüsusi təyinatlıları üçün əsas tapşırıqlardan biri idi. Biz xüsusi təyinatlılar qarşıda hər kəsi necə çətin döyüş gözlədiyini yaxşı anlayırdıq. Ancaq məqsədimiz aydın idi. Şuşanı azad etməli idik”, - vurğulayır müsahibimiz.

Şuşa istiqamətində döyüşlərin ilk mərhələsində ətrafdakı strateji cəhətdən olduqca önəmli olan yüksəkliklərdən birinin düşməndən təmizlənməsi tapşırığı verilir. Şəhərə gedən yollara və ətrafdakı mövqelərə nəzarət etməyə imkan verən bu yüksəklik düşmənin müdafiə sistemində xüsusi yer tuturdu. Mürəkkəb dağlıq relyef, güclü atəş və əvvəlcədən qurulmuş istehkamlar hərbçilərimizin irəliləməsini çətinləşdirsə də, Azərbaycan əsgərinin iradəsi qarşısında bu maneələr də davam gətirir: “Düşmənin atəşlərinə, təbii maneələrə baxmayaraq, zabit və əsgərlərimizin iradəsi, döyüş əzmi sayəsində qarşımıza qoyulan tapşırıqları yerinə yetirdik. Yüksəklikləri ələ keçirdik, mövqelərdə möhkəmləndik. Bununla da Şuşa şəhərinin giriş və çıxış yolları bizim nəzarətimizə keçdi. Həmin yüksəklik azad edildikdən sonra ordumuzun digər bölmələrinə təhvil verildi və



Polkovnik-leytenant Nicad Bədəlov



Şuşa istiqamətində döyüşlər davam etdirildi”.

Şuşanın azadlığı uğrunda döyüşlər son dərəcə ağır şəraitdə gedirdi. Düşmənin artilleriya atəşləri, şəhər ətrafında qurduğu müdafiə istehkamları və təbii maneələr hər addımda ciddi müqavimət yaradırdı. Ancaq Azərbaycan hərbçiləri irəliləyir, qarşılarına qoyulan tapşırıqları bir-bir yerinə yetirirdilər.

N. Bədəlov noyabrın 7-də artıq Şuşada olduqlarını xatırlayır. Həmin günlərdən danışarkən döyüşlərin ağırlığını, qarşıya qoyulan məqsədə çatmağın sevincini və silahdaşlarının göstərdiyi fədakarlığı xüsusi vurğulayır:

“Şuşanın azad olunması heç də asan başa gəlmədi. Çox çətin şəraitdə döyüşürdük. Düşmənin artilleriya atəşləri, şəhər ətrafında qurduğu istehkamlar, təbii relyef ciddi maneələr yaradırdı. Ancaq bütün bunlara baxmayaraq, noyabrın 7-də biz artıq Şuşada idik. Şəhəri düşməndən azad etmişdik”.

Noyabrın 8-də isə Şuşada tamam başqa mənzərə yaşanırdı. Bir neçə gün əvvəl düşmən atəşləri altında irəliləyən, ağır döyüşlərdən keçən hərbçilərimiz tarixi Qələbənin sevincini yaşayırdılar. Həmin anların təsirini illər sonra da eyni həyəcanla xatırlayan hərbi hissə komandiri deyir ki, bu hissləri sözlə ifadə etmək çətindir: “Zəfər elan olunan gün keçirdiyimiz hissləri sözlə ifadə etmək çox çətindir. Noyabrın 8-də Şuşada olan hərbçilərin hər biri sevincdən göz yaşlarını saxlaya bilmirdi. Biz artıq Şuşada idik. Uğrunda döyüşdüyümüz, neçə-neçə silahdaşımızın canından keçdiyi torpaqları azad etmişdik. Bu elə bir hiss idi ki, onu ancaq həmin anları yaşayanlar anlaya bilər”.

Qələbənin sevincinə şəhid silahdaşlarının xatirəsindən doğan kədər də qarışırdı. Axı azad edilən hər qarış torpaqda neçə-neçə igidimizin qanı tökülmüşdü. “Bu Zəfər təsadüfi qazanılmadı. Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi, xalqımızın birliyi və Azərbaycan əsgərinin fədakarlığı bizi Qələbəyə apardı. Qarabağı şəhidlərimizin qanı bahasına geri aldıq. Bu gün onların xatirəsini yaşatmaq, bizə əmanət qoyduqları Vətəni göz bəbəyimiz kimi qorumaq hər birimizin borcudur”,- deyir Vətən Müharibəsi Qəhrəmanı.

> **“Vətən həsrətinə son qoymaq üçün döyüşürdük.”**

“Qarabağ” ordenli polis polkovniki Nurlan Məmmədov da Şuşa fatehlərindədir. Hazırda Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin rəis müavini vəzifəsində çalışan Nurlan Məmmədov Vətən müharibəsi zamanı Daxili Qoşunların hərbi qulluqçusu kimi Füzuli, Xocavənd, Kəlbəcər və Şuşa istiqamətlərində döyüş yolu keçib. Onunla söhbətimizdə də yad-



Polis polkovniki Nurlan Məmmədov



daşında silinməz izlər qoymuş həmin günlərə qayıdırıq.

2020-ci il sentyabrın 27-də müharibənin başlandığını öyrənəndə qarşıda nə qədər ağır və məsuliyyətli günlərin dayandığını yaxşı anlayırdı. Azərbaycan xalqının onilliklər boyu çəkdiyi torpaq həsrətinə son qoyulmalı, tarixi ədalət döyüş meydanında bərpa edilməli idi. Onun üçün həmin gün illərlə qazandığı hərbi bilik və təcrübənin əsl sınağı başlayırdı. Füzuli şəhərinin azad olunması uğrunda döyüşlər onun ilk tapşırığı olur. Bir komandir kimi şəxsi heyətin idarə edilməsi, döyüş hazırlığının və təhlükəsizliyinin təmin olunması, hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətinin qorunması da üzərinə düşən vəzifələr sırasında idi.

“Bu torpaqların hər qarışı xalqımızın yaddaşında uzun illər yaşadılmış yurd həsrətinin bir parçası idi. Hamımız həmin həsrətə son qoymaq üçün döyüşürdük”, - deyir.

N. Məmmədov xatırlayır ki, müharibənin ilk günündən hər bir hərbi qulluqçu üzərinə düşən vəzifənin məsuliyyətini dərk edirdi. Ön cəbhədə döyüşənlər də, şəxsi heyətin idarə olunmasını təmin edənlər də, digər zəruri tapşırıqları yerinə yetirənlər də eyni məqsədə xidmət edirdilər. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalı idi.

Döyüşlərdə qazanılan uğurlar günbəgün bizi qələbəyə yaxınlaşdırırdı. Nurlan Məmmədovun xatirələrində döyüşlərin ağırlığı qədər, həmin torpaqlara illər sonra qayıdışın doğurduğu hisslər də xüsusi yer tutur. Bir vaxtlar güllə və mərmi səslərinin eşidildiyi ərazilərdə indi həyat yenidən canlanır. Dağıdılmış yaşayış məntəqələri bərpa olunur, yollar çəkilir, doğma yurd yerlərinə qayıdan insanların sayı artır.

Bütün bunları görmək ona böyük qürur yaşadır. Ancaq azad edilmiş torpaqlara hər səfərində çiyin-çiyinə döyüşdüyü, Vətən uğrunda canından keçmiş silahdaşlarını da xatırlayır. Axı onların da ən böyük arzusu bu yerləri azad görmək idi. İndi həmin ərazilərə qayıdanda keçirdiyi sevincə döyüş yoldaşlarının yoxluğundan doğan kədər də qarışır.

Vətən Müharibəsi Qəhrəmanı, polkovnik Zəfər Yusibovun döyüş yolu da belə xatirələrlə zəngindir. Daxili İşlər Nazirliyinin Daxili Qoşunların “Şahin” Xüsusi Təyinatlı Dəstəsinin sabiq komandiri müharibə zamanı ən ağır əməliyyatlarda iştirak edib. Onun rəhbərlik etdiyi hərbi qulluqçular düşmənin güclü müdafiə mövqelərinin yarılması, strateji yüksəkliklərin azad edilməsi uğrunda döyüşlərdə böyük fədakarlıq göstəriblər.

Bu gün hərbçilərimizin yaddaşında “Canavar”, “Elşən” və “Camış” postları kimi qalan mövqelərin ələ keçirilməsi də həmin qəhrəmanlıq səhifələrindəndir. Düşmən strateji yüksəkliklərdə möhkəmlənmiş, həmin əraziləri ağır silahlarla müdafiə edirdi. Belə şəraitdə Azərbaycan hərbçiləri bəzən yüngül atıcı silahlarla düş-



Polkovnik Zəfər Yusibov

mənin tank və artilleriyasına qarşı döyüşməli olurdular.

Hər addımda ölüm təhlükəsi olsa da, hərbçilərimizi irəli aparan güc torpaqlarımızı azad etmək əzmi idi. Həmin mövqelərin ələ keçirilməsi düşmənin müdafiə sisteminin zəiflədilməsinə, ordumuzun sonrakı istiqamətlərdə irəliləməsinə şərait yaradırdı. Füzuli və Cəbrayıl istiqamətlərində aparılan əməliyyatlar zamanı düşmənin illərlə qurduğu güclü istehkamlar dağıdılır. Xüsusi təyinatlıların bir neçə istiqamətdən həyata keçirdiyi hücumlar düşmənin müqavimətini sarsıdır və beləcə, digər yaşayış məntəqələrinin azad edilməsi üçün əlverişli şərait yaranır.

> **“Qanımız və canımız bahasına o doğma yurd yerini düşməndən azad etmişdik.”**

Qəhrəmanımız həmin döyüşlərdən danışarkən maraqlı bir məqamı da xatırlayır. Düşməndən ələ keçirilmiş xəritələrdə Füzuli və Cəbrayıl rayonlarının xarabalıq kimi qeyd olunması işğal illərində bu ərazilərin hansı vəziyyətə salındığını bir daha göstərirdi.

Hadrut istiqamətində isə döyüşlər xüsusilə ağır keçirdi. Düşmən strateji mövqeləri itirməmək üçün ciddi müqavimət göstərirdi. Azərbaycan hərbçiləri yaşayış məntəqələrini azad edərkən mülki əhalinin təhlükəsizliyini də nəzərə alır, dinc sakinlərin döyüş bölgəsindən çıxması üçün dəhliz yaradırdılar: “Hadrutda Azərbaycan bayrağını ilk dəfə dalğalandıran oğulların sırasında olmaq dünyanın ən böyük xoşbəxtliyi idi. Qanımız və canımız bahasına o doğma yurd yerini düşməndən azad etmişdik. Biz dinc əhali ilə deyil, ərazi bütövlüyümüzə göz dikənlərlə, o cümlədən muzdlularla döyüşürdük”.

Müharibə zamanı Zəfər Yusibov özü də ağır yaralanıb. Snayper gülləsinə tuş gəlməsinə baxmayaraq, yaralandığını silahdaşlarından gizlədərək üç gün döyüşləri davam etdirib. Yalnız rəhbərliyin təkidindən sonra müalicə olunmaq üçün Daxili Qoşunların hospitalına göndərilib.

Həmin günlərdə Şuşa uğrunda həlledici döyüşlər gedirdi. Yaralandığı üçün bu əməliyyatlarda iştirak edə bilməməsi ona ağır təsir etmişdi. Döyüş yoldaşları cəbhədə olduğu halda hospitalda qalmaq istəmirdi. Yarası tam sağalmamış yenidən döyüş bölgəsinə qayıdır və Kəlbəcər istiqamətində aparılan əməliyyatlara qoşulur.

Bax, Qarabağ ən ağır şəraitdə belə döyüş yoldaşlarının yanında olmağa çalışan komandirlərin, yaralı halda döyüşü davam etdirən əsgərlərin, son nəfəsinə qədər mövqeyini tərk etməyən qəhrəmanların fədakarlığı sayəsində azadlığına qovuşub. “8 Noyabr - Zəfəri”nin möhtəşəmliyi də elə bundadır. O günə qədər keçilən yolun hər qarışında Azərbaycan əsgərinin fədakarlığı, şəhidlərimizin qanı, qazilərimizin döyüş əzmi var. Bu Zəfər tariximizə bu qəhrəmanlarımızın adı, qanı, canı bahasına həkk olunub.

Üç insan, üç fərqli döyüş yolu, bir müqəddəs amal... Bu məqalənin qəhrəmanlarını birləşdirən isə Vətən sevgisi, torpaq həsrətinə son qoymaq əzmi və tarixi Qələbəyə aparan sınaqlar oldu. Hərəsinin yaddaşında ayrı-ayrı döyüş səhnələri, unudulmayan silahdaşları, qürurla andıqları xatirələri var. Bu gün onların dilindən oxuduqlarımız həm də özünü bu torpağın övladı hesab edən hər bir azərbaycanlının iradəsinin və qəhrəmanlığının canlı salnaməsidir.

R.Mehtiyev

Şəhidlərin xatirəsinə həsr olunan cüdo birinciliyi

DİN-in komandası çempionatın qalibi olub

Oktyabrın 30-31 tarixlərində antiterror tədbirləri zamanı şəhid olmuş hərbi qulluqçu və polis əməkdaşlarının əziz xatirəsinə həsr edilən cüdo üzrə açıq çempionat keçirilib.

Yarışda Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti, Dövlət Vergi Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Fövqəladə Hallar Nazirliyi, Dövlət Mühafizə Xidməti, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin komandaları iştirak ediblər.

Ümumilikdə 62 idmançının qatıldığı çempionatda iştirakçılar müxtəlif çəki dərəcələri üzrə qüvvələrini sınayıblar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda Daxili İşlər Nazirliyinin təmsilçiləri uğurlu nəticələr əldə ediblər.

Şəxsi birincilikdə 60 kiloqram çəki dərəcəsində DİN-in İdman Cəmiyyətinin təmsilçisi polis baş leytenantı V. Bayramov birinci, Polis Akademiyasının kursantı N. Şıxəliyev ikinci yerə layiq görülüb.

66 kiloqram çəki dərəcəsində Polis Akademiyasının kursantı Ə. Əbişov ikinci yeri tutub. 73 kiloqram çəki dərəcəsində Baş Mühafizə İdarəsinin əməkdaşı polis serjantı M. Əliyev və Daxili Qoşunların əsgəri C. İsayev üçüncü yerin sahibi olublar.

81 kiloqram çəki dərəcəsində DİN-in İdman Cəmiyyətinin növbəti təmsilçisi polis leytenantı A. Fətullayev ikinci, Əlahiddə Çevik Polis Alayının (ƏÇPA) əməkdaşı polis serjantı E. Məmmədov üçüncü yeri qazanıb.

90 kiloqram çəki dərəcəsində Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşı polis serjantı Ə. Nuriyev birinci, ƏÇPA-nın əməkdaşı polis baş leytenantı N. Hüseynov ikinci, Daxili Qoşunların əməkdaşı A. Adilzadə isə üçüncü yerə yüksəlib.

100 kiloqram çəki dərəcəsində ƏÇPA-nın əməkdaşı polis baş leytenantı M. Mehdiyev birinci, E. Nəsibli ikinci, F. Hacıyev üçüncü yeri tutublar.

100 kiloqramdan yuxarı çəki dərəcəsində isə ƏÇPA-nın əməkdaşı polis leytenantı Ş. Qəhrəmanov birinci, Bakı şəhər Baş Polis İdarəsinin əməkdaşı polis leytenantı E. Muradov ikinci yerə layiq görülüb.

Komanda hesabında Daxili İşlər Nazirliyinin komandası bütün iştirakçı komandaları üstələyərək birinci yeri tutub və çempionatın qalibi olub. Dövlət Mühafizə Xidmətinin komandası ikinci, Fövqəladə Hallar Nazirliyinin komandası isə üçüncü yerdə qərarlaşıb.

Qaliblər kubok və medallarla təltif ediliblər.







Minilliklərin mirası cinayətkarların hədəfində

Tarixi əşyaların qanunsuz ticarətini təşkil edənlər saxlanılıb

Tarixi abidələr, qədim yaşayış məskənləri və muzeylər xalqların keçmişini yaşadan qiymətli irs nümunələridir. Bu əşyalar yalnız maddi dəyəri ilə deyil, aid olduqları dövr və sivilizasiyalar haqqında daşıdıqları məlumatlarla da əhəmiyyətlidir. Lakin qədim əşyalara marağın artması qanunsuz qazıntıların genişlənməsinə, tarixi əşyaların oğurlanmasına və qaçaqmalçılıq yolu ilə ölkədən çıxarılması cəhdlərinə də zəmin yaradır.





Avropada uzun illər fəaliyyət göstərən beynəlxalq cinayətkar şəbəkənin ifşası bu təhlükənin miqyasını bir daha üzə çıxarıb. Avropa ölkələrində Avropal (Avropa İttifaqı Hüquq Mühafizə Orqanları üzrə Əməkdaşlıq Agentliyi) dəstəyi ilə keçirilən genişmiqyaslı əməliyyat zamanı minlərlə tarixi əşyanın qanunsuz dövriyyəsi ilə bağlı faktlar araşdırılıb.

Əməliyyat 2020-ci ildə Bolqarıstanda yaşayış evlərindən birində keçirilən axtarış zamanı 7 minə yaxın tarixi əşyanın aşkar edilməsi ilə başlayıb. Onların mühüm tarixi və maddi dəyərə malik olduğu müəyyən edilib. Aşkarlanan tarixi əşyalar arasında əsasən qədim Yunanıstan, Roma və Trakiya sivilizasiyalarına məxsus nümunələr üstünlük təşkil edib. Əşyaların bir hissəsinin mənşəyini təsdiqləyən sənədlərin olmaması, digərlərinin isə şübhəli sənədlərlə müşayiət edilməsi onların qanunsuz yolla əldə edilməsi ehtimalını yaradıb.

Aşkarlanan nümunələr arasında eramızdan əvvəl təxminən 2000-ci ilə aid əşyalar, qədim maskalar, hərbi ləvazimatlar, zinət əşyaları və müxtəlif qablar olub. İstintaq genişləndikcə məlum olub ki, məsələ yalnız bir evdə saxlanılan kolleksiya ilə məhdudlaşmır. Araşdırmalar nəticəsində tarixi əşyaların qanunsuz daşınması və satışı ilə məşğul olan, Avropanın müxtəlif ölkələrində fəaliyyət göstərən geniş cinayət şəbəkəsi müəyyən edilib.

İstintaq materiallarına əsasən, şəbəkənin əsas fiqurlarından biri Bolqarıstan və digər Balkan ölkələrində qanunsuz arxeoloji qazıntıların maliyyələşdirilməsində şübhəli bilinib. Bu fəaliyyətə cəlb edilən şəxslər əvvəlcədən verilmiş sifarişlər əsasında tarixi ərazilərdə qazıntılar aparıb, aşkarladıqları qiymətli əşyaları vasitəçilərin köməyi ilə şəbəkənin digər üzvlərinə ötürüblər.

Əsas məqsəd həmin əşyaların beynəlxalq bazarda satışını təşkil etməklə qanunsuz gəlir əldə etmək olub. Bunun üçün artefaktların həqiqi mənşəyinin gizlədilməsi və onların qanuni yollarla əldə edilmiş kolleksiya nümunələri kimi təqdim olunması üsullarından istifadə edildiyi ehtimal olunur.

Araşdırmalar zamanı bəzi tarixi əşyaların mənşəyini qanuni göstərmək məqsədilə hərrac evləri və incəsənət qalereyaları ilə əlaqəli sənədlərdən istifadə olunduğu müəyyənləşdirilib. Həmin sənədlərin bir qisminin Fransa, Almaniya, Böyük Britaniya və ABŞ-da fəaliyyət göstərən qurumlarla əlaqəli olduğu bildirilib. İstintaq çərçivəsində qanunsuz əldə edilmiş əşyaların saxta və ya şübhəli sənədlərlə hərraclara çıxarılma ehtimalı araşdırılıb. Şəbəkənin Qərbi Avropa, Balkan ölkələri, ABŞ və digər regionlarda əlaqələrinin olduğu və 16 ildən artıq müddətdə fəaliyyət göstərdiyi məlum olub.

Cinayətkar şəbəkənin beynəlxalq əlaqələrinin müəyyənləşdirilməsi müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının birgə fəaliyyətini zəruri edib. Avropolun koordinasiyası ilə Albaniya, Bolqarıstan, Fransa, Almaniya, Yunanıstan, İtaliya və Böyük Britaniyanın aidiyyəti qurumları araşdırmalara cəlb olunub.

İki yüzdən artıq polisin iştirakı ilə keçirilən tədbirlər nəticəsində 35 nəfər saxlanılıb. Onların arasında qanunsuz arxeoloji qazıntılarda, tarixi əşyaların alqı-satqısında və beynəlxalq daşınmasında iştirak etməkdə şübhəli bilinən şəxslər olub.

Əməliyyat zamanı 3 mindən artıq tarixi əşya və mədəni sərvət aşkar edilərək götürülüb. Onların arasında qızıl və gümüş sikkələr, qədim qablar, keramika nümunələri, zinət əşyaları və müxtəlif incəsənət nümunələri olub. Qeyd edək ki, aşkarlanan tarixi əşyaların bir qisminin eramızdan əvvəl 3-cü, digərlərinin isə eramızın 2-ci əsrinə aid olduğu müəyyən edilib. Götürülən artefaktların "qara" bazardakı ümumi dəyəri 100 milyon avrodan çox qiymətləndirilib.

Axtarışlar zamanı, həmçinin çoxlu sayda silah-sursat, nağd pul vəsaitləri, metal axtaran cihazlar, elektron və digər maddi sübutlar aşkarlanaraq götürülüb.

Avropanın bir neçə ölkəsini əhatə edən əməliyyat mədəni sərvətlərin qanunsuz dövriyyəsinin nə qədər mürəkkəb və beynəlxalq xarakter daşıdığını göstərir. Qanunsuz arxeoloji qazıntılardan başlayaraq saxta sənədlər vasitəsilə tarixi əşyaların satışa çıxarılmasına qədər uzanan bu fəaliyyət müxtəlif ölkələrdəki şəxslər arasında əlaqələrin mövcudluğundan xəbər verir. Tarixi sərvətlərin qanunsuz mənimsənilməsi yalnız ayrı-ayrı dövlətlərin deyil, bütövlükdə bəşəriyyətin mədəni irsinə vurulan zərbədir. Çünki hər bir qədim əşya aid olduğu dövrün tarixindən, mədəniyyətindən və insan həyatından müəyyən izlər daşıyır. Onun qanunsuz yollarla əldə edilməsi və mənşəyinin gizlədilməsi isə həmin tarixi dövrün öyrənilməsini çətinləşdirir. Bu səbəbdən tarixi-mədəni irsin qorunması, qədim əşyaların qanunsuz ticarətinin qarşısının alınması və mənşə ölkələrinə qaytarılması beynəlxalq səviyyədə birgə və əlaqələndirilmiş mübarizənin vacibliyini bir daha ön plana çıxarır.

Aytən Tahirova

Tarixin ən böyük kiberoğurluğu

Milyardlarla dollarlıq rəqəmsal aktiv necə ələ keçirilib?



Rəqəmsal texnologiyaların sürətli inkişafı maliyyə əməliyyatlarını daha əlçatan və operativ etsə də, yeni təhlükələrin meydana çıxmasına da şərait yaradır. Artıq milyonlarla istifadəçinin və milyardlarla dollar dəyərində aktivlərin cəmləşdiyi beynəlxalq maliyyə platformaları da mürəkkəb kiberhücumlarla üzləşir.

Belə cinayətlərin miqyası isə bəzən ənənəvi oğurluq anlayışının sərhədlərini aşır. Buna ən son nümunə dünyanın ən böyük kriptovalyuta birjası olan "Binance" platformasına qarşı həyata keçirilən irimiqyaslı kiberhücumdur. Oktyabrın 29-da baş verən hadisə nəticəsində təxminən 6,3 milyard dollar dəyərində rəqəmsal aktiv oğurlanıb.

Kibertəhlükəsizlik mütəxəssisləri bu hadisəni indiyədək qeydə alınmış ən böyük kriptovalyuta oğurluğu kimi qiymətləndirirlər. Şirkətin mütəxəssisləri hadisəni təkcə kriptovalyuta tarixində deyil, ümumilikdə indiyədək baş vermiş ən böyük oğurluq hadisələrindən biri hesab edir.

"Binance" rəhbərliyi isə istifadəçilərin itkilərinin şirkətin ehtiyat fondu və öz maliyyə vəsaitləri hesabına tam qarşılanacağını açıqlayıb. İlkin mərhələdə oğurlanmış aktivlərin təxminən 3 milyard dollarlıq hissəsinin dondurulduğu bildirilib. Qalan vəsaitlərin izlənilməsi və geri qaytarılması istiqamətində müvafiq qurumlarla birgə tədbirlərə başlanılıb. Təhlükəsizlik yoxlamaları məqsədilə platformadan vəsait çıxarılması əməliyyatları müvəqqəti dayandırılıb.

►*Kiberhücumun arxasında kim dayanır?*

Hadisənin diqqətçəkən məqamlarından biri kiberhücumun Şimali Koreya ilə əlaqəli haker qruplaşması tərəfindən həyata keçirilməsidir. Mütəxəssislər hücumun izlərini araşdıraraq onu Şimali Koreya ilə əlaqələndirilən "TraderTraitor" qruplaşmasına aid ediblər. ABŞ Federal Təhqiqat Bürosu (FBI) da yaydığı məlumatda milyardlarla dollarlıq oğurluğun arxasında Şimali Koreyanın dayandığını açıqlayıb.

Belə haker qruplarının fəaliyyəti əsasən rəqəmsal aktivlərin ələ keçirilməsi, müxtəlif maliyyə əməliyyatları vasitəsilə izlərinin itirilməsi və oğurlanmış vəsaitlərin başqa ünvanlara köçürülməsi ilə xarakterizə olunur. "Binance"in ilkin araşdırmalarına əsasən, hücum şirkətin texniki əməkdaşlarından birinə məxsus noutbukun təhlükəsizliyinin pozulması ilə başlamış ola bilər. Bu yolla daxili sistemlərdən birinə giriş əldə edən cinayətkarlar icazəsiz pul çıxarılması əməliyyatları həyata keçiriblər. Sonrakı araşdırmalar zamanı isə hadisənin daha mürəkkəb mexanizmlə törədildiyi, sistemdə əlavə təhlükəsizlik boşluqlarından istifadə olunduğu müəyyən edilib.

Mütəxəssislərin diqqət yetirdiyi digər mühüm məqam oğurlanmış vəsaitlərin izinin itirilməsi üçün tətbiq edilən üsullardır. Cinayətkarlar rəqəmsal aktivləri müxtəlif kriptovalyutalara çevirərək ayrı-ayrı şəbəkələr arasında köçürüblər. Hadisə kibercinayətkarların təkcə informasiya sistemlərinə müdaxilə imkanlarının deyil, həm də oğurlanmış aktivlərin gizlədilməsi üçün istifadə etdikləri üsulların getdikcə mürəkkəbləşdiyini ortaya çıxarıb.

►*Kiberhücumun yaratdığı böyük təsir*

Hadisə barədə məlumatların yayılmasından sonra kriptovalyuta bazarında ciddi qiymət dəyişiklikləri müşahidə olunub.

Ən geniş yayılmış rəqəmsal aktivlərdən biri olan "Bitcoin"in qiyməti qısa müddətdə təxminən 5 faiz azalaraq son altı həftənin ən aşağı səviyyəsinə enib. Digər kriptovalyutaların dəyərində də azalmalar qeydə alınıb. Hadisədən sonra platformanın təhlükəsizlik sistemlərində əlavə yoxlamalar aparılıb, müvafiq məhdudiyyətlər tətbiq edilib və vəsait çıxarılması əməliyyatlarının mərhələli şəkildə bərpasına başlanılıb.

POLİS

REDAKTOR:
ANAR QAFAROV

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik